BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№1 Humanitar elmlər seriyası 2007

# TÜRK XALQLARI DÖVLƏTÇİLİK TARİXİNƏ DAİR (QƏDİM DÖVR VƏ ERKƏN ORTA ƏSRLƏR)

Ə.İ.MUXTAROVA
*Bakı Dövlət Universiteti*

Türk xalqları (1) zəngin dövlətçilik ənənəsinə malikdir (2). Lakin bu problem Azərbaycan türkşünaslığında indiyədək xüsusi tədqiqat predmeti olmamışdır. Bir sıra Qərbi Avropa və rus tarixçilərinin əsərlərində ümumiyyətlə, türk xalqlarının dövlətçilik tarixi məsələsinə yanlış mövqe nəzərə çarpır. Bunun iki əsas səbəbi vardır: birinci, indiyədək qədim dövrdə (əsas etibarı ilə e.ə. I minillikdə və eranın ilk əsrlərində) Orta Asiyada, Mərkəzi Asiyada və Cənub-Şərqi Avropada antik mənbələrdə adları «Kimmer», «Skif», «Sak», «Sarmat», «Massaget» və s. kimi çəkilmiş qədim etnosların İrandilli sayılması (3); ikinci, Azərbaycan ərazisində e.ə. I minillikdə və eranın I minilliyin I yarısında mövcud olmuş Manna, Maday, Atropatena və Alban dövlət qurumlarını yaratmış etnosların hurridilli (mannalar), Dağıstandilli (albanlar) və İrandilli (madaylar və atropatenalılar) hesab edilməsi. İndi bu etnosların Altay dil ailəsinin Türk qoluna mənsub olmaları baxışı vardır (4) və bəzi Azərbaycan tədqiqatçıları tərəfindən qızğın müdafiə olunmaqdadır (5). Bu məqalədə həmin baxışların ayrı-ayrılıqda təhlilinin verilməs məqsədi güdülmür, çünki, Azərbaycan ərazisində e.ə. I minillikdə türkmənşəli etnosların yaşaması baxışı hələ elmi diskussiya vəziyyətindədir. Ona görə də bu məqalədə Azərbaycan ərazisində yaşamış qədim etnosların dövlətçilik tarixi məsələləri əhatə olunmamışdır. Təkcə bunu deməklə kifayətlənirik ki, bu baxışın tarixi həqiqəti əks etdirməsi sübut olunsa, onda Ön Asiyanın və Cənubi Qafqazın qədim tarixinin bir sıra problemlərinin yeni aspektdə araşdırılması vəzifəsi qarşıda durur. Lakin qeyd edilməlidir ki, e.ə. I minillikdə Orta Asiya və Qazaxıstan ərazilərində və Cənub-Şərqi Avropada yaşamış kimmerlərin, sakların, massagetlərin və sarmatların İrandilli sayılması baxışı arxeoloji qazıntılar nəticəsində aşkarlanmış maddi-mədəniyyət nümunələrinin elmi təhlili ilə təkzib olunur. Belə ki, məsələn, Cənub-Şərqi Avropada kimmerlərə, skiflərə, sarmatlara aid edilən maddi-mədəniyyət və incəsənət nümunələrinin (məsələn, ox ucluqları, qılınc, xəncər, «skif heyvan stili» və s.). Tunc dövründə və sonrakı əsrlərə aid olan Uralətraflı, Altay və Mərkəzi Asiya arxeoloji mədəniyyətləri ilə mənşə birliyi sübut olunmuşdur (6). Orta Asiya və Qazaxıstan xalqlarının tarixlərinə dair ümumiləşdirilmiş əsərlərdə sakların həmin ərazilərdə Tunc dövründə yaşadıqları və onların türk mənşəli olmaları göstərilmişdir (7). Antropoloq V.V. Qinzburqa görə Qazaxıstan ərazisində e.ə. I minillikdə yaşamış sakların Dağlıq Altayla genetik birliyi vardır (8). Ona görə də biz antik mənbələrdə adları «Kimmer», «Skif», «Sak», «Sarmat», «Massaget» və s. kimi göstərilmiş qədim etnosların türkmənşəli olması baxışının tərəfində

dururuq və deməli, türk xalqlarının dövlətçilik tarixinin e.ə. I minilliyin əvvəllərindən başlandığı fikrini ortaya qoyuruq. Problemin bu aspektdə qoyuluşu ilə əlaqədar olaraq qədim dövrdə və erkən orta əsrlərdə türkmənşəli xalqların dövlət qurumlarının iki tipinin mövcud olması ayırd olunur:

1. Skif köçəri maldarlıq təsərrüfatı həyat tərzi əsasında yaranmış dövlət qurumları (kimmerlərin, skiflərin, sarmatların, massagetlərin, hunların, avarların, Altay türklərinin, oğuzların və b. dövlətləri). Bu etnosların ictimai qurumları əsas etibarı ilə *hərbi demokratiya* (kimmerlər, skiflər, saklar, massagetlər, hunlar və avarlar) *və erkən feodalizm* (Türk xaqanlığı, Cucan və Tele xaqanlığı, Oğuz dövləti və b.) idi (9).

2. Oturaq (əkinçilik) həyat tərzi ilə köçəri maldarlığın birgə mövcud olması əsasında yaranmış türk dövlət qurumları (Kuşan, Ağhun (yaxud Eftallar), Qaraxanlar, Xarəzmşahlıq, Xəzər və Bolqar dövlətləri və b). İctimai quruluşca bu dövlətlər quldar və erkən feodalizm qurumları kimi səciyyələndirilir (10). Oturaq əhalisi olan müəyyən bir ərazidə köçəri maldar tayfa ittifaqının yaratdığı dövlət qurumu forması Orta Asiyada erkən orta əsrlər dövrü üçün səciyyəvidir. V.V. Bartold bu dövlət qurumlarından danışarkən yazır ki, belə dövlətlərdə köçəri maldarlıq qaydaları yerli mədəni qaydalarla qarışır və nəticədə köçəri hakimiyyət ilə yerli oturaq əhali arasında özünəməxsus münasibətlər təşəkkül tapır (11). Lakin hər iki halda dövlət qurumlarının funksiyası eynidir: dövlət idarəçiliyi müəyyən ərazi daxilində cəmiyyətin idarə sisteminin tənzimlənməsidir və buna uyğun olaraq dövlət qurumunun xarici və daxili vəzifələri ön plana çıxır: birinci daxildə tayfaların vahid hakimiyyətdə birləşdirilməsi və ikinci, dövlətin ərazisinin xarici basqından qorunması ilə yanaşı, həmin ərazinin qonşu ölkələr hesabına genişləndirilməsi.

Tədqiqatçılara görə, Tunc dövrünün başlanması ilə köçəri maldarlıq təsərrüfat sahəsi təşəkkül tapır. Təsərrüfatın ən intensiv istehsal sahəsi hesab olunan maldarlığın sürətlə inkişafı atçılığın inkişafı ilə müşayiət olunurdu. Metaldan döyüş alətlərinin yaranması ilə bir vaxta düşən atçılıq çoxlu mal-qara sürülərinin geniş otlaqlarla təmin olunması zərurəti ilə əlaqədar olaraq qonşu və uzaq etnosların ərazilərinin zəbt olunması üçün şərait yaradır ki, bu da öz növbəsində tayfa ittifaqının yaranmasını və onların miqrasiyasını şərtləndirmişdir (12). Müəyyən edilmişdir ki, maldar ellərdə icma quruluşundan sinfi quruluşa keçid yalnız hərbi demokratiya ola bilər. Bu quruluşun səciyyəvi cəhəti tayfanın üzvlərinin yığıncağı formasında hakimiyyətin tayfa ittifaqına daxil olan tayfalara məxsus olmasıdır. Etnosun siyasi quruluşunu təmsil edən başçılar da yalnız yığıncaqlarda seçilirdilər. Deməli, hərbi demokratiya ibtidai icma quruluşunun davamıdır, lakin icma quruluşundan fərqli olaraq hərbi demokratiya quruluşu dövründə müharibə, maldar etnosun həyatını və yaşayışını tənzim edən funksiyaya, başqa sözlə, mal-qara üçün yeni ərazilərə malik olma, peşəyə çevrilir. Hərbi demokratiya etnosun həyatında iki mühüm zərurətlə bağlı olur: yeni otlaqların ələ keçirilməsi və qarət. Qul əməyi oturaq və əkinçi xalqların dövlət qurumları üçün səciyyəvi olmuşdur.

Yuxarıda adlarını sadaladığımız qədim türk mənşəli etnosların sırf köçəri maldarlıqla məşğul olmuş hissəsinin hərbi demokratiya quruluşlu dövlət qurumlarına qısaca nəzər salaq.

Qara dənizin şimal çöllərində və Krımda yaşamış kimmerlərin haqqında Herodot (e.ə. V əsr) yazır ki, onların başçıların basilevs («çar») adlanır (13). Onun məlumatlarından («başçılar» ifadəsini işlətməsində) belə çıxır ki, bu etnos tayfa ittifaqından ibarət idi və tayfanın da öz başçısı var idi. Təəssüf ki, antik mənbələrdə türkdilli xalqlarda dövlət qurumunun necə adlandırıldığı göstərilməmişdir. Rəfiq Özdəkə görə, ümumiyyətlə, qədim türklərdə dövlət qurumu «El» («İl») adlanmışdır (14). Kimmerlərin siyasi quruluşu haqqında Herodot yazır ki, bütün məsələlər yığıncaqlarda həll olunurdu. Məsələn, sakların Orta Asiyadan kimmerlərin ölkəsinə basqını ilə əlaqədar olaraq vəziyyət yığıncaqlarda müzakirə edildikdə tayfa üzvləri başqa ölkəyə çıxıb getməyə təklif etdiyi halda, başçılar buna etiraz edərək ölənə qədər qalmağı təklif etmişdilər. Lakin xalqın qərarını poza bilmədiklərinə görə başçılar bir-birini öldürməyi qərara almışdılar. Bundan sonra yığıncaqlarda yeni başçılar seçilmiş və onların başçılığı ilə kimmerlər Cənubi Qafqaza, buradan Ön Asiyaya köçmüşdülər (15). Qədim şərq mənbələrində Ön Asiyada kimmerlərə başçılıq etmiş üç başçının adı çəkilmişdir: Teuşpa, Tuqdame və Sandakuru (16).

E.ə. VII əsrdən başlayaraq Qara dənizin şimal çöllərində yaşayanlar antik mənbələrdə skit (skif) adlandırılır (17). Antik mənbələrdə onların bir sıra çarlarının adları qeyd olunmuşdur: Aspak (e.ə. VII əsr), Sparqapit (e.ə. VII əsr), Taksak (e.ə. 513-cü il), Atey (e.ə. IV əsr) və b. Bundan başqa Herodot bir sıra skif hökmdarlarının adlarını çəkir: Savli, İdantirs, Ar-yapit, İskil, Tur, Rollak, Oktamasad, Skopas, Tarqitay, Kolaksay, Arpaksay və b. (18). Herodot və ondan sonrakı antik müəlliflər skiflərdə başçıların xalq yığıncaqlarında seçildiklərini yazırlar ki, bu da məhz yuxarıda deyildiyi kimi hərbi demokratiyanın səciyyəvi cəhətidir (19).

E.ə. VII-IV əsrlərdə skiflərdən şərqdə Azov dənizi sahillərində yaşayan tayfalar antik mənbələrdə savromat (20) və e.ə. IV əsrdən sonra sarmat adlandırılır (21). Plini (I əsr) sarmatlardan danışarkən onların çoxlu tayfalardan ibarət olduğunu qeyd etmişdir (22). Avropa və rus tədqiqatçıları sarmatları irandilli sayırlar. Lakin K.F. Smirnov arxeoloji qazıntıların nəticələri əsasında sarmatların Cənubi Uraldan gəldiklərini və Cənub-Şərqi Avropada sarmatlara aid olan maddi-mədəniyyət nümunələrinin Sibirdə və Qazaxıstanda Andronovo arxeoloji mədəniyyəti ilə mənşə birliyinə malik olduğunu müəyyən etmişdir (23). E.ə. IV əsrdə skiflərin çarı, 90 yaşlı atey Makedoniya çarı II Filipə məğlub olduqdan sonra Qara dənizin şimal çöllərində skiflərin ağalığı sarmatlara keçir.

Mənbələrdə sarmatlarda qadın başçılar barədə də məlumatlar vardır. Həqiqətdə də K.F.Smirnov sarmatlara aid olan bir kurqanda dəfn edilmiş qadının yanında 73 sm. uzunluğunda qılınc aşkar etmişdir. Sarmatların dövlət qurumu barədə mənbələrdə məlumat yoxdur, lakin onlarda təsərrüfatın əsasını köçəri maldarlıq təşkil etməsi və ona görə də hərbi demokratiya şəraitində yaşadıqları şübhəsizdir.

E.ə. I minillikdə Orta Asiya və Qazaxıstan çöllərində sak və Massaget tayfa ittifaqları məlumdur. Saklar maldarlıqla məşğul olurdular. Lakin onların hökmdarları var idi. Antik müəllif Ktesiy Orta Asiya saklarını Maday (Midiya) ilə müharibə etdiklərini yazmışdır ki, bu da saklarda dövlət qurumunun olduğunu göstərir. E.ə. Vİ əsrdə İran Əhəmənilər dövlətinin başçısı Kirin saklara qarşı müharibəsi ilə əlaqədar olaraq mənbələrdə Sak ordusunun başında Sakestar, Amorq və Omir adlı

üç sərkərdənin durması göstərilir (24). Deməli, saklar üç tayfa ittifaqından ibarət idilər. Orta Asiya və Qazaxıstan xalqlarının tarixlərinə dair ümumiləşdirilmiş əsərlərdə sakların və massagetlərin hərbi demokratiya şəraitində yaşadıqları göstərilmişdir (25). E.ə. V əsrdən sonra Qazaxıstan ərazisində Sak tayfa ittifaqında siyasi hegemonluq Usun adlı tayfalara keçmişdir. Massagetlər Xəzər dənizindən şərqdə yaşayırdılar. Onların ictimai və iqtisadi quruşları barədə məlumat yoxdur. Lakin antik mənbələrdən aydın olur ki, e.ə. I minilliyin ortalarında Massaget tayfa qadın ittifaqına başçılıq edirdi ki, bu məhz hərbi demokratiyanın səciyyəvi xüsusiyyətidir (26).

Qədim dövrdə hərbi demokratiya tipli dövlət qurumu hunlara aiddir. E.ə. III əsrdə Mərkəzi Asiyada hunların ilk dövlət qurumu tədqiqatçılar tərəfindən hərbi demokratiya səciyyəli dövlət sayılır. Dövlətin ərazisində tayfaların hər birinin öz ərazisi var idi və dövlət məsələləri də yığıncaqlarda həll olunurdu (27). Hökmdar Metenin dövləti 24 tayfadan ibarət olduğuna görə ərazi 24 əyalətə bölünmüş və əyalətin başına sərkərdələr təyin edilmişdir. Belə idarə sistemi hərbi demokratiyanın məhsulu idi. Bu xüsusiyyət eranın ilk əsrlərində Cənubi-Şərqi Avropada yaranmış Hun dövlətinə də aiddir. Burada hunların antik mənbələrdə adları Akadsir, Altziyagir, Altpildzur, Ankizqir, Bittiqur, Kutriqur, Onaqur, Saraqur, Tunqur, Utiqur və başqa kimi yazılmış tayfalardan ibarət olması məlumdur (28). Mənbələrdə hunların maldarlıqla məşğul olmaları barədə məlumatlar çoxdur və ona görə də doğru olaraq onların hərbi demokratiya şəraitində yaşamaları göstərilir.

Hərbi demokratiya qurumunun idarə olunması aşağıdan yuxarıyadək yığıncaqların qərarlarına əsaslanırdı.

Şərqi Avropada Hun xaqanlığı və Avar xaqanlığı ilə türk xalqlarının tarixində hərbi demokratiya quruluşu sona yetir və bundan sonra köçəri maldarlıqda erkən feodal türk dövlətləri yaranır. Qeyd edilməlidir ki, türk xalqlarının erkən feodalizm dövründə ictimai-siyasi strukturları lazımi dərəcədə öyrənilməmişdir. Ümumiyyətlə, hərbi demokratiya və erkən feodalizm quruluşlarının iqtisadi və siyasi məqamların (siniflərin yaranması, torpaq və mal-qara üzərində mülkiyyət formaları və s.) aydın deyil. İbtidai icmanın inkişafının hansı mərhələsində və hansı formasında erkən feodalizm quruluşu yaranır – sualına hələ cavab tapılmamışdır. Feodalizmin genezisi və mahiyyəti haqqında diskussiyalar yaxınlara qədər davam edirdi (29). Digər tərəfdən, qədim türk xalqlarında sinifyaranma etnosların tez-tez dəyişkənliyi ilə müşayiət olunurdu (30). Xüsusilə Orta Asiyada əkinçi (oturaq) sosial strukturları ilə köçəri maldarların sosial strukturlar arasında bütün erkən orta əsrlər boyu sintez prosesi ilə yeniləşirdi və ona görə də feodal asılılığının çoxlu formaları var idi. Eranın ilk əsrlərində Altaydan başlamış Dunaya qədər nəhəng ərazini əhatə edən böyük Bozqırda (çöldə) yaşamış köçəri türk tayfalarının qurumları idi. Bu qurumları VI əsrdə Altayda yaranmış Türk xaqanlığı əvəz edir. Türk xalqlarının tarixində bu dövlət ilk erkən feodal dövləti hesab olunur. Bu dövlətdə başçı «kaqan» idi, lakin o, monarx deyildir. Ölkə əyalətlərə bölünmüşdür, onların başçıları (şad) kaqanın nəslindən təyin olunurdu. Deməli, nə xan, nə də yerli hakimlər artıq xalq yığıncaqlarında seçilmirdilər. Hakimiyyət nəsli idi. Paytaxt yox idi, kaqan hərbi düşərgədə, alaçıqda yaşayırdı, lakin qızıl taxta otururdu. Sıravi əhali «kara budun» (budun «xalqı mənasında

idi») adlanırdı. «Kara» dedikdə tayfaların üzvləri nəzərdə tutulurdu, tayfalar isə tayfa ittifaqlarında birləşmiş xalqda idilər. Tayfa ittifaqlarının adamı isə «Oğuz» adlanırdı. Məsələn, uyğurlar «toğuz-oğuz», «karluklar iç oğuz» adlanırdılar. Bu, könüllü tayfa birləşmələri idi. Lakin kaqanın fərmanı ilə yaradılmış tayfa birləşmələri «budun» adlanırdı. Məsələn, türk rum yazılarında Dulu və Nuşibi tayfa birləşmələri müvafiq surətdə «Budun və on ok budun» kimi qeyd olunmuşdur (32).

Türk xaqanlığından sonra Mərkəzi Asiya ilk erkən feodal dövləti Qırğız xaqanlığı idi. Arxeoloji qazıntılar nəticəsində bu dövlətin mərkəzi ərazisi olmuş Minusin çökəkliyində çoxlu miqdarda varlı adamlara məxsus qəbirlər və onlarda əşyalar göstərir ki, qırğızlarda sinfi təbəqələşmə baş vermişdir. Ölkə 6 feodal malikanəsindən ibarət olan əyalətə bölünmüşdü. Əyalət «baq», «baq»ın əhalisi isə «kara» («qara camaat» mənasında) adlanırdı (33).

Oturaq həyat tərzinə malik erkən feodal tipinə Volqaboyu dövləti misal göstərilə bilər. Bu dövlət əvvəlcə Cənubi-Şərqi Avropada köçəri həyat keçirmiş bolqarların bir hissəsinin IX əsrdə Volqaboyuna köçəri oturaq həyata keçməsi nəticəsində yaranmışdı. Qeyd edilməlidir ki, köçəriləri oturaq həyata keçirən dövlət yaratmaları ilk dəfə bu bolqarlara aiddir. Bu dövlətin Bolqar, Suvar, Oşel, Kermençuk və b. şəhərləri vardı. X əsrdə bolqarlarda feodal münasibətləri formalaşmışdı (34).

Köçəri maldarlıq həyat tərzi ilə məşğul olan türk tayfalarının erkən feodalizm quruluşu şəraitində yaşamış böyük qurumlardan biri Oğuz dövlətidir. Mənşə etibarı ilə hunlara aid edilən və VI-VII əsrlərdə Türk xaqanlığında yaşamış oğuzlar VIII-IX əsrlərdə Sır-Dərya çayının sahillərində məskun idilər. Onların 15-20 min nəfərlik süvari ordusu olan bir hissəsi 1035-ci ildə Xorasana köçmüş, Qəznəvi dövləti ilə qanlı döyüşlərdən sonra işğalçılıq müharibələrinə keçərək qısa tarixi müddət ərzində Bizansa qədər böyük ərazini işğal etmişdilər. Oğuzlar da hunlarda olduğu kimi 24 tayfadan (boydan) ibarət idilər. Boyun başında duran hakim «beg» adlanırdı. Hər bəyin 40 nəfərlik süvari hərbi silahdaşı vardı. Bu silahdaşlar «yoldaş» adlanırdı (35).

Oğuzlarda sinfi təbəqələşmə vardı və onlar yüksək, orta və aşağı təbəqələrə bölünürdülər. Azad tayfa üzvlərini birləşdirən icma «el» adlanırdı (36). Doğrudur, hələ Sırdərya hövzələrində olarkən oğuzların az qismi oturaq həyata keçmişdi, lakin köçəri oğuzlar onlara istehza ilə «yantuq» (tənbəl) deyirdilər, çünki onlar köçərilik etmirdilər (37).

Köçəri həyat tərzində feodal münasibətlərinin xüsusiyyətləri vardır. Feodala müəyyən ərazi adamlarla birlikdə təhkim olunmur, ərazidəki adamlar təhkim edilir, çünki ərazi hər bir tayfaya məxsus olub mal-qaranın otarılması üçün xüsusi mülkiyyətdir, deməli, feodalın torpaqdan icma formasında istifadəsinə əsaslanırdı (38).

Türk xalqlarının dövlətçilik tarixində maldarlıqla yanaşı, oturaq əkinçilik həyat tərzi keçirmiş xalqlara məxsus dövlət qurumları da olmuşdur. Bu qurumlar əsas etibarı ilə Orta Asiya və Mərkəzi Asiyada mövcud olmuşdur. Əkinçiliklə məşğul olduqlarına görə bu xalqlarda həm də quldar dövlətlər kimi nəzərdən keçirilməlidir. Kuşan, Kanq, Xəzər, Ağhun (Eftal), Uyğur, Qaraxanlar, Xarəzm, Qəznəvilər və b. dövlətlər məhz əvvəlcə qismən quldar (Kuşan, Kanq, Ağhun və b.) və erkən feodal dövlətlər idilər.

Yuxarıda deyilənlərdən göründüyü kimi, qədim dövrə türk xalqlarının iki tip dövlət qurumu olmuşdur: 1. Sırf köçəri maldar tayfaların hərbi demokratiya qurumları (kimmer, skif, sak, massaget, hun siyasi qurumları). 2. Maldar ellərin oturaq əhalisi olan ölkələrdə hərbi demok-

ratiк qurumları (Xarəzm (e.ə. III – b.e. I əsr), Kanq (e.ə. III – b.e. I əsr) və Kuşan dövlətləri.

Erкən orta əsrlərdə də türк dövlət qurumlarının iкi tipi vardır: 1. Sırf кöçəri maldar tayfaların erкən feodal dövlətləri (Qərbi Hun dövləti və Avar xaqanlıqları və b.). 2. Maldarların oturaq əhalisi olan ölкələrdə erкən feodal dövlətləri (Türк xaqanlığı, Cucan və Tele xaqanlıqları, Eftallar, Xəzər, Qaraxanlar, Xarəzmşahlıq, Bulqar və b.)

## ƏDƏBİYYAT


1. Burada ən sonraкı səhifələrdə «Türк xalqları» dediкdə Altay-dil ailəsinin Türк qoluna mənsub dillərdə danışan xalqlar nəzərdə tutulur. Müasir türкoloji ədəbiyyatda «Türк» etnoniminin iкi anlayışı barədə bax: Əsməd Muxtarova. Türк xalqlarının tarixi .Baкı, 1999-cu il.
2. Türкiyə tədqiqatçısı Rəfiq Özdəкə görə tarixdə türк xalqlarının 110 dövlət qurumu olmuşdur. (Rəfiq Özdəк. Türкün qızıl кitabı. Baкı, 1992, s. 28).
3. Bax: Azərbaycan tarixi, I c. Baкı, 1998, s. 167-169, 331.
4. Юсифов Ю.Б. Ранние контакты Месопотамии с северо-восточными странами (Приурмийская зона). Вестник древней истории, 1987, № 1; Yenə onun: Топонимы и этническая история древнего Азербайджана. «Материалы конференции о проблемах азербайджанской ономастики». Баку, 1986; Yenə onun: К значению древних топонимов в изучении этнической истории Азербайджана. «Известия АН Азерб.ССР». Серия литературы, языка и искусства. 1987, №2.
5. Гейбуллаев Г.А. К этногенезу азербайджанцев. Баку, 1991; Yenə onun: Azərbaycan türкlərinin təşəккülü tarixindən. Baкı. 1994.
6. Тереножкин А.И. Киммерийцы. Киев. 1976, с. 182, 208; Смирнов А.П. Скифы. М., 1968, с. 41, 44, 45; Смирнов К.Ф. Сарматы и утверждение их политического господства в Скифии. М. 1981, с. 9, 12, 116 вя б.
7. История Казахской ССР. Т.1. Алма-Ата, 1957, с. 40.
8. Гинзбург В.В. Древнее население восточных и центральных районов Казахской ССР по антропологическим данным. Труды Института Этнографии АН СССР. Новая серия, т. 33, М. 1956, с. 245.
9. Смирнов А.П. Göstərilən əsər, s. 14; Антонов Н.К. Лесика по тюркологии. Якутск, 1984, с. 20. Qumillyov L.N. Qədim türklər. Bakı, 1962, s. 11; Bernştam A.N. Oçerki istorii qunnov. L.1951, s. 3-6.
10. Bu barədə Orta Asiya və Qazaxıstan xalqlarının tarixinə dair ümumiləşdirilmiş əsərlərdə ətraflı məlumat verilmişdir.
11. Бартольд В.В. Соч. том II, часть. 2, М., 1964, с. 28.
12. Smirnov A.P. Göstərilən əsər, s. 9-10.
13. Herodot, IV 11.
14. Rəfiq Özdəк. Göstərilən əsər, s. 29.
15. Bu barə də bax: Дьяконов И.М. История Мидии. М-Л. 1956, с. 123.
16. Yenə orada.
17. Степи Европейской части СССР в скифо-сарматское время. М. 1989.
18. Herodot, IV, 5, 76, 78, 80, 120; Qeybullayev Q.Ə. Azərbaycan türкlərinin təşəккülü tarixindən. s, 140-147.
19. Smirnov A.P. Göstərilən əsər, s. 9-10.
20. Herodot, IV, s. 21. Smirnov K.F. Göstərilən əsər, s. 9-10.
21. Smirnov A.P. Göstərilən əsər, s. 9-10.
22. Plini IV, 15, 19.
23. Smirnov A.P. Göstərilən əsər, s. 10, 12, 18, 116.
24. История Узбекской ССР. Т.1. кн. 1, Ташкент, 1955, с. 41.

25. История Туркменской ССР. Т.1. кн. 1, с.58; История Казахской ССР. Т.1. Алма-Ата, 1957, с. 35; Акишев К.А., Кушаев Г.А. Древняя культура саков и усуней долины реки Или. Алма-Ата, 1963, с. 4 .
26. Кузьмина Е.Е. В стране Кавата и Афрасиаба. М. 1977, с. 88.
27. Akişev K.A., Kuşaev Q.A. Göstərilən əsər, s. 10.
28. Джафаров Ю. Гунны и Азербайджан. Б. 1993, с. 4
29. Данилова Л.В. Дискуссионные проблемы теории докапиталистических обществ. «Проблемы истории докапиталистических обществ». М. 1968, с. 27-66
30. Новосельцев А.П., Пошуто В.Т., Черепнин Л.В. Пути развития феодализма. М. 1972, с. 6.
31. Ətraflı məlumat üçün:Farüq Sümer. Oğuzlar. B. 1992.
32. Yenə orada.
33. История Киргизской СССР, с. 124-125.
34. Очерки истории СССР III-IX вв. М., 1958, с. 683.
35. Farüq Sümer. Göstərilən əsər, B. 1992, s. 117.
36. Farüq Sümer. Göstərilən əsər, B. 1992, s. 117.
37. Yenə orada, s. 70.
38. Qumilyov L.N. Göstərilən əsər, s. 45.

## К ИСТОРИИ ГОСУДАРСТВЕННОСТИ ТЮРКСКИХ НАРОДОВ (ДРЕВНИЙ ПЕРИОД И РАННЕЕ СРЕДНЕВЕКОВЬЕ )

**А.И.МУХТАРОВА**

### РЕЗЮМЕ

Тюркские народы имеют богатые древние государственные традиции. Несмотря на это, данная проблема на являлась объектом исследования в азербайджанской историографии до современных дней. В трудах некоторых западноевропейских и русских историков история государственности тюркских народов прослеживается необъективно.

В этой статье прослеживается цель анализа взглядов в отдельности. Также не охвачены вопросы истории государственности древних этносов, проживающих на территории Азербайджана. В статье даются сведения об этносах и их государственных устройствах, проживающих в Центральной Азии Юго-Восточной Европы.

## ABOUT HİSTORY OF STATEMENT OF TURKS PEOPLE (ancient and early middle ages)

**A.İ.MUXTAROVA**

### SUMMARY

Turкs possess very rich and ancient public traditions. Despite of this fact, the present problem was not object of the investigation in Azerbaijan historical tradition until the present time in the researches of some Western European and Russian historians the statehood history of Turкs is not followed objectively. The issues about the statehood history of the ancient ethnoses that lived in Azerbaijan territory are also not studied as well.

İn this article, individually is followed analyses of the viewpoints about the researched issue. The information about the ethnoses that lived in Central Asia and South-Eastern Europe and about their overangements are also mentioned in the certain article.